# MEHRİBAN XANIM ƏLİYEVANIN ÜMUMBƏŞƏRİ DƏYƏRLİ YAŞILLAŞDIRMA MİSSİYASI

**Firdovsi Şahbazov**

*AR ETN İqtisadiyyat İnstitutu, Bakı*
*irdovsi.shahbazov@gmail.com*

Azərbaycanın dayanıqlı sosial-iqtisadi inkişaf modelinin əsas fərqləndirici amillərindən biri də iqtisadi artımın ekoloji tarazlığın qorunub saxlanılması şəraitində əldə edilməsidir. Ölkəmiz ətraf mühitin mühafizəsi sahəsində qəbul olunan beynəlxalq konvensiyalara qoşulmuş, eyni zamanda bu sahədə təkmil milli qanunvericiliyini formalaşdırmışdır. Sosial-iqtisadi inkişafa dair qəbul olunan proqram və strategiyalarda da ekoloji məsələlərə xüsusi yer verilmişdir. Bütün dünyada olduğu kimi, ölkəmizdə də ətraf mühitin qorunmasında əsas strateji istiqamət "yaşıl enerji"dən istifadəyə əsaslanan "yaşıl iqtisadiyyat" quruculuğunun sürətləndirilməsi müəyyən edilmişdir. Bərpa olunan enerji mənbələri sahəsində geniş imkanları və reallaşdırılan layihələrin uğurlu icrası sayəsində Azərbaycan "yaşıl iqtisadiyyat" quruculuğunda inamla irəliləyir. Qlobal iqlim dəyişikliklərinin artan təhdidi şəraitində ekoloji problemlərin həllinin sürətləndirilməsi vəzifəsi flora və faunanın qorunub saxlanılmasını ekologiya sahəsində həyata keçiriləcək tədbirlərin mərkəzinə gətirmişdir.

Yaşıl təbiətin mühafizəsi və inkişafına ölkəmizdə xüsusi diqqət yetirilir. Yaradılan qoruq və yasaqlıqlar, həmçinin geniş yaşıllaşdırma tədbirləri ilə ekoloji tarazlığın bərpasına çalışılır. Respublika ərazisində yeni park və bağların salınması, kütləvi ağacəkmə kampaniyalarının və müxtəlif ekoloji tədbirlərin təşkili, eyni zamanda biomüxtəlifliyin qorunması üçün reintroduksiya layihələrinin icrası sahəsində Birinci Vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın gördüyü çoxsaylı işlər ölkəmizdə ətraf mühitin sağlamlaşdırılmasına böyük töhfə verməkdədir. Məhz onun təşəbbüsü ilə 2007-ci ildə başlanan "Hərəyə bir ağac əkək" kampaniyası respublikanın bütün şəhər, rayon və qəsəbələrində indiyə qədər davam etdirilir.

"Ətraf mühitin sağlamlaşdırılmasına, ekoloji problemlərin həllinə töhfə olan "Hərəyə bir ağac əkək" layihəsi çərçivəsində respublikanın bütün guşələrində yüz minlərlə ağac əkilib, yeni parklar və bağlar salınıb. Həmçinin, "Nəsimi İli" (2020-ci il) çərçivəsində Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycanda 650 min ağac əkilib və Bakı şəhərində Qafqaz Biomüxtəlifliyi Sammiti keçirilib. Beynəlxalq ekspertlərin və xarici ölkələrin aparıcı təşkilatlarının diqqətini cəlb edən Sammitdə Qafqazda biomüxtəlifliyin qorunması məsələləri müzakirə olunub" [2].

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən reintroduksiya layihələri ilə Azərbaycanda nəsli kəsilən bəzi heyvanlar yenidən öz tarixi areallarına qaytarılır. Heydər Əliyev Fondu tərəfindən 2010-cu

ildə başladılan "Ceyranların Qafqazda tarixən məskunlaşdıqları ərazilərə qaytarılması" proqramı hazırda IDEA İctimai Birliyi, AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan nümayəndəliyinin birgə əməkdaşlığı çərçivəsində uğurla icra olunmaqdadır. Ceyranların reintroduksiyası nəticəsində Azərbaycanda ceyranların sayı artıq 10 minə çatıb. Layihə çərçivəsində Şirvan Milli Parkından Acınohur-Sarıca düzləri, Bozdağ silsiləsi, Mil düzü və Qobustan-Cəngiçay ərazilərinə ceyranlar gətirilib. 2021-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilən "Ceyranların Qafqazda tarixən məskunlaşdıqları ərazilərə reintroduksiyası" proqramının gənclərin maarifləndirilməsi və inkişafı istiqaməti üzrə "Ceyranları qoruyaq!" adlı növbəti ekoloji yay düşərgəsi keçirilib. Düşərgəyə Salyan rayonundan 60-a yaxın məktəbli qoşulub. "Ceyranları qoruyaq!" adlı ekoloji yay düşərgəsinin əsas məqsədi ceyranların reintroduksiya edildiyi ərazilərdə, o cümlədən onların məskunlaşdığı təbii areallara yaxın yerlərdə yaşayan gənc nəsli bu növ barədə maarifləndirməkdir. Qeyd edək ki, Heydər Əliyev Fondu tərəfindən digər heyvanların da reintroduksiya edilməsi nəzərdə tutulur [3].

Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən ekoloji layihələrdən biri də "Tullantıdan sənətə" adlı beynəlxalq sərginin təşkilidir. 2012-2018-ci illərdə Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunda 7 belə sərgi təşkil edilmişdir. Sərgilərdə iştirakçılar tərəfindən məişət tullantılarından hazırlanan müxtəlif sənət nümunələri tədbir iştirakçılarına nümayiş etdirilib. Sərginin əsas məqsədi əhaliyə ətraf mühiti təmiz saxlamağın vacibliyini aşılamaq, planetin ekoloji sağlamlığına qayğı ilə yanaşmanı təbliğ etmək, insanları israfçılıqdan yayındırmaq və onların malik olduğu əşyaları düşünmədən zibil qutularına atmaq vərdişlərindən çəkindirməkdir. Tullantıdan sənət əsərlərinin yaradılması müasir dövrdə "alternativ incəsənət", şablon və qaydalara etiraz kimi dəyərləndirilir. Bu sahənin sənətkarları metal, kağız, plastik kütlə, rezin məmulat və müxtəlif məişət tullantılardan istifadə etməklə maraqlı və ibrətamiz əsərlər yaradırlar [1].

Mehriban xanım Əliyevanın ekoloji sahədəki təşəbbüslərindən biri də park və yaşıl abad məhəllələrin yaradılmasıdır. Belə parklardan biri 2018-ci ildə Bakının Xətai rayonunda salınıb. Ümumi sahəsi 36833 kvadratmetr olan parkda torpaq münbitləşdirilib, yaşıllıq zolağı salınıb, onlarla ağac və dekorativ kollar əkilib, müasir işıqlandırma sistemi və müşahidə kameraları quraşdırılıb. 43 hektar ərazini əhatə edən Xətai rayonundakı "Gənclik" parkı da Heydər Əliyev Fondu tərəfindən yaradılıb. Parkda 300 minə yaxın ağac və kol – Eldar şamı, zeytun, kiparis, çinar, tuya, liqustra, müxtəlif meyvə ağacları, oleandr gülü, ardıc kolu vardır. Parkda həmçinin göl də yaradılıb.

Mehriban xanım Əliyeva ekologiya sahəsində həyata keçirilən beynəlxalq tədbirlərdə də aktiv iştirak edir. Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) təsisçisi və rəhbəri Leyla Əliyeva 2015-ci ildə Parisdə keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə 21-ci konfransında (COP21) iştirak ediblər. 2023-cü ildə Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərində keçirilən COP-28 konfransında panel iclasda iştirak edən Leyla Əliyeva ölkəmizin çaylarında və Xəzər dənizindəki ekoloji vəziyyət barədə iştirakçılara geniş məlumat verib.

Leyla Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu və IDEA İctimai Birliyi aktual ekoloji problemlərin həlli, əhali arasında ictimai-ekoloji nəzarətin gücləndirilməsi məqsədilə "Ağacların kəsilməsinə yox!" proqramı çərçivəsində bütün ölkə üzrə genişmiqyaslı tədbirlər həyata keçirib [4].

2009-cu ildə Səmərqənddə baş tutan Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü çərçivəsində imzalanan "Ümumi evimiz olan Dünya üçün Sıfır Tullantı üzrə Qlobal öhdəliyə dair Bəyannamə" də Azərbaycandan Mehriban xanım Əliyeva tərəfindən imzalanıb. Bəyannamə qlobal ekoloji problemlərin həllinə töhfə məqsədi daşıyır. Bəyannamədə tükənən resurslardan səmərəli istifadə edilməsi, onların təkrar istifadəsi, təkrar emal vasitəsilə tullantıların azaldılması kimi məsələlər öz əksini tapıb, sözügedən sənədin icrası ilə ölkəmizdə sıfır tullantı yanaşması həyata keçirilir.

Qeyd edək ki, Azərbaycan ekoloji problemlərin aktual olduğu ölkələr sırasındadır. Ölkəmizdə şirin su ehtiyatları məhduddur. Ölkə ərazisinin 43%-ində torpaqların eroziyası, 20%-ində isə şoranlaşma müşahidə olunur. 20%-ə qədər torpaqlarımızın 30 ilə yaxın müddət ərzində erməni işğalında olması ekologiyaya ciddi ziyan vurub. İşğal dövründə 60 min hektara yaxın meşə fondu ermənilər tərəfindən məhv edilib. Transsərhəd çay olan Oxçuçay Ermənistan ərazisində daim kəskin çirklənməyə məruz qalır. Qafan və Qacaran dağ-mədən sənayesinin tullantıları ilə hədsiz dərəcədə çirkləndirilən Oxçuçayın suyu təmizlənmədən Azərbaycan ərazisinə yönləndirilir. Oxçuçaydan 2021-ci ildə götürülən su nümunələrində yüksək miqdarda ağır metal, xüsusən mis, molibden, manqan, dəmir, sink və xrom aşkar edilib [4].

Ekoloji sahədə ölkəmizin üzləşdiyi problemlərin miqyasına nəzər saldıqda ətraf mühitin sağlamlaşdırılması sahəsində görülən tədbirlərin, o cümlədən ölkə ərazində yaşıllıqların salınmasının nə qədər əhəmiyyətli olduğunu təsəvvür etmək mümkündür. Bu istiqamətdə reallaşdırılan tədbirlərin əsas təşəbbüskarı kimi Mehriban xanım Əliyevanın fəaliyyəti ölkə və qlobal miqyasında böyük dəyərə malikdir. Mehriban xanım Əliyeva ekologiya sahəsindəki fəaliyyəti də daxil olmaqla ölkədəki çoxşaxəli səmərəli fəaliyyəti ilə ölkə vətəndaşlarının yüksək inam və etimadını qazanmışdır. Məhz bu amil Mehriban xanım Əliyevanın təşəbbüskarı olduğu ekoloji layihələrin bundan sonra da ölkəmizdə uğurla icra ediləcəyinə və onların nəticəsi olaraq, Azərbaycanda ekoloji tarazlığın qorunub saxlanılacağına böyük inam yaradır.

**Ədəbiyyat:**


1. https://heydar-aliyev-foundation.org/az
2. https://www.muallim.edu.az/news.php?id=19390
3. https://report.az/ekologiya/ceyranlari-qoruyaq-ekoloji-yay-dusergesi-basa-catib
4. https://yeniazerbaycan.com/Gundem_e76919_az.html